***ELMİ İŞ*** **Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 4 / 165-170** **ISSN: 2663-4619**
***SCIENTIFIC WORK*** **International Scientific Journal. 2025 / Volume: 19 Issue: 4 / 165-170** **e-ISSN: 2708-986X**

DOI: https://doi.org/10.36719/2663-4619/114/165-170

**Ləman Nərimanova**
Bakı Slavyan Universiteti
https://orcid.org/0009-0007-9041-5507
leman.nerimnova@gmail.com

# Azərbaycanda yaşayan almanların həyatı

## Xülasə

Məqalə 200 il əvvəl Azərbaycan ərazisinə gəlmiş almanlar haqqındadır. Burada məskunlaşdıqları dövrdə onların həyat tərzi, yerli əhali ilə münasibətləri, Rusiya imperiyasının onları hansı məqsədlə buraya köçürülmələrinə icazə verməsi haqqındakı maraqlı faktlar diqqətə layiqdir. Azərbaycana gəlmiş almanlar Vürtemberq ərazisindən olan şvablar idilər. Onların özünə xas olan mədəniyyətləri, kənd təsərrüfatının məhsuldarlığının artırılması haqqındakı bilikləri, tətbiq etdikləri texniki yeniliklər Rusiya imperiyası tərəfindən yüksək qiymətləndirilirdi. Bir çox sahələrdə onlara imtiyazlar verilir, güzəştlər tətbiq olunurdu. Almanlar Azərbaycanda məskunlaşdıqları dövrdə 8 koloniya salmışdılar. Koloniyaların alman mədəniyyətinə xas olan ev tikinti quruluşu olmuşdur. Almanların Bakı şəhərində həyata keçirdikləri tikinti layihələri günümüzdə də paytaxt memarlığının inciləri hesab oluna bilər.

Məqalə tərtib olunarkən daha çox nəzəri metodlardan istifadə olunaraq bu mövzuda yazılmış kitablara, məqalələrə istinadlar olunmuşdur. Məqalənin yazılmasının əsas məqsədi vaxtilə ölkəmizdə yaşamış almanların qoyduqları mədəni irsi qələmə almaqdır. Belə ki, ölkələr arasındakı mədəni əlaqələr digər sahələrdəki münasibətlərlə müqayisədə daha az dəyişkəndir.

***Açar sözlər:*** *Azərbaycandakı almanlar, Helenendorf, koloniya, N.fon der Nonne, şvablar*

**Laman Narimanova**
Baku Slavic University
https://orcid.org/0009-0007-9041-5507
leman.nerimnova@gmail.com

# The life of Germans Living in Azerbaijan

## Abstract

The article is about the Germans who came to the territory of Azerbaijan 200 years ago. Interesting facts about their lifestyle during their settlement here, their relations with the local population, and the purpose for which the Russian Empire allowed them to be resettled here are worthy of attention. The Germans who came to Azerbaijan were Swabians from the territory of Württemberg. Their unique culture, knowledge of increasing agricultural productivity, and the technical innovations they applied were highly appreciated by the Russian Empire. They were given privileges and concessions in many areas. The Germans established 8 colonies during their settlement in Azerbaijan. The colonies had a house construction structure typical of German culture. The construction projects implemented by the Germans in Baku can still be considered pearls of the capital's architecture today.

When compiling the article, references were made to books and articles written on this topic using mostly theoretical methods. The main purpose of writing the article is to describe the cultural heritage left by the Germans who once lived in our country. Thus, cultural relations between countries are less volatile than relations in other areas.

***Keywords:*** *Germans in Azerbaijan, Helenendorf, colony, N. von der Nonne, Swabians*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Azərbaycan coğrafi mövqeyinə görə tarixən, həmçinin günümüzdə də beynəlxalq aləmdə mühüm yer tutur. Yurdumuz bütün dövrlərdə müxtəlif xalqların nümayəndələrinin həm daimi, həm də müvəqqəti yaşayış yeri olmuşdur.

Mədəni müxtəliflik mədəniyyətin ən mühüm amillərindən biridir. Bu baxımdan Azərbaycan çox qədimdən müxtəlif xalqların və mədəniyyətlərin vətəni olmuşdur. Azərbaycan Şərq mədəniyyətinin Avropa mədəniyyətinə, yaxud əksinə keçid alması üçün körpü rolunu oynamışdır. Çoxmillətli, çoxdinli, çoxdilli Azərbaycan üçün bu ideologiya tarixi reallığın özüdür. Milli-etnik qrupların nümayəndələrinin yaşadığı Azərbaycan unikal coğrafi, geosiyasi və mədəni məkandır. Azərbaycanda tarix boyu bütün xalqlara, milli azlıqlara, etnik qruplara eyni normal münasibət bəslənilib.

Qlobal siyasi dəyişikliklərlə birləşən qaçılmaz zaman faktoru olaraq hər bir xalqın böyük və mühüm hadisələrlə, ekzistensial ziddiyyətlərlə və faciəli epizodlarla dolu öz tarixi var. Etnik almanlar da istisna deyil. Vaxtilə Azərbaycan ərazisində yerləşən bu və digər alman koloniyalarının adları bu gün yaddaşlardan silinsə də onların mövcudluğuna dair sübutlar Şimali Azərbaycanın bir çox ərazilərində görünür. Bakıdakı Xilaskar kilsəsi adlandırılan Lüteran kilsəsi onların paytaxt əhalisinin əhəmiyyətli hissəsini təşkil etdiyini deməyə əsas verir.

**Tədqiqat**

Şvablar Azərbaycanı "vəd edilmiş torpaq" hesab edən almanlardır. Şvablar alman dilinin dialektini bu günə qədər qoruyub saxlayan german tayfalarından biri olan suevi nəslindəndir. Onların dialekti Bavariya və ya Sakson ləhcəsi kimidir. Onlar Almaniyanın cənubu İsveçrə və Fransanın sərhəd bölgələrində, Şvabiya adlanan tarixi bölgədə yaşayırlar. Bavariya əyaləti daxilində öz inzibati rayonları var (MDZ Moskau).

O zaman Şvabiya bölgəsində təxminən 2 milyon insan yaşayırdı. XIX əsrin əvvəllərində şvablar əsasən bir neçə ölkənin geniş ərazilərində yaşayan kəndlilər idi. Napoleon müharibələri dövründə şvab torpaqları bir neçə il ərzində viran qalır, bu da yerli sakinləri məhv olmaq həddinə gətirir. Onlar köç etməyə başlayırlar. Çoxları Ukraynada, Qara dəniz sahillərində məskunlaşır, lakin bəziləri inadla Zaqafqaziyaya getməyə çalışırlar. Onlar Lüteran Kilsəsi daxilində yaranmış dini hərəkatın - Pietizmin nümayəndələri idilər. Pietizm hərəkatının özü XVII əsrdə formalaşsa da, XIX əsrin əvvəllərində davam edən hadisələr fonunda pietistlərin təqibləri başlanmışdı. Bu zaman Vürtemberq əhalisi arasında Azərbaycan ərazisində yerləşən "vəd edilmiş torpaq" ideyası yarandı. Bu ərazini heç vaxt görməmiş və çətinliklə də olsa təsəvvür etməyən almanların ağlına bu fikrin necə və niyə gəldiyi bu günə qədər sirr olaraq qalır. Ola bilsin ki, bunu Azərbaycan vilayətlərində çoxlu millətlərin və dinlərin nümayəndələrinin yaxşı yanaşı yaşaması diktə edir. Bəlkə də onlar islam və xristianlıq arasında sərhəddə dinc bir yer axtarırdılar ki, orada xristian təqibləri qorxusundan azad ola bilsinlər (Abdullayev, 2014).

Rusiya imperiyası yenicə işğal olunmuş Zaqafqaziyada öz siyasi təsirini artırmaq üçün almanların buraya köçürülməsini doğru addım kimi qiymətləndirirdi. Tarixdən bildiyimiz kimi XIX əsrin əvvəlləri Azərbaycanın müstəqilliyinin itirilməsi ilə nəticələnən mürəkkəb və ziddiyyətli dövr olmuşdur. Rusiya imperiyası Cənubi Qafqazı işğal etdikdən sonra ilk növbədə regionda möhkəmlənməyi, gələcək iqtisadi inkişaf üçün regionun resurslarından lazımınca bəhrələnmək məqsədi ilə əhali arasında siyasi dayaqlarını yaratmağı qarşısına məqsəd qoymuşdu. Bu məqsədi həyata keçirmək üçün çarizm çox problemli bölgədə sosial-siyasi, iqtisadi, etno-konfessional dayaq yaratmalı idi. Cənubi Qafqazda Azərbaycanda olan müsəlman əhalinin sayca çoxluğu var idi. Bunu nəzərə alan Rusiya imperiyası bölgəyə çoxlu sayda xristian dininin nümayəndələrini köçürməyə başladı. Bunlar ruslar, almanlar, ermənilər və s. idi. Ancaq çarizmin Qafqazda köçürmə siyasətinin başlanğıcını bir qrup alman kolonistin bölgəyə gəlməsi ilə qoyulmuşdur (Almanlara Azərbaycanda, 1992).

XVIII əsrdən I Pyotrun imperatorluğu zamanından Rusiyaya çoxlu sayda əcnəbi alimlərin, həkimlərin, pedaqoqların, incəsənət nümayəndələrinin, memarların axını olmuşdur. Onlar burada

elmin və texnikanın inkişafı üçün müstəsnasız töhfələr vermişlər. XVIII əsrin ikinci yarısından etibarən isə imperiyanın ərazisi böyüdükcə həm onu mənimsəmək, həm də təsərrüfatın inkişafını təmin etmək üçün alman koloniyalarının burada salınması etibarlı dayaqlar yaradırdı. Alman kolonistlərin kütləvi axınının başlanğıcı 22 iyul 1763-cü ildə II Yekaterinanın Manifesti ilə qoyulmuşdu (Zeynalova, 2002). Bu qərara əsasən almanlara Rusiyanın müxtəlif quberniyalarında yaşamağa icazə verildi. Əcnəbilərə dini azadlıq, hərbi xidmətdən tamamilə azad olunma, müəyyən müddətə vergi və rüsumlardan azad olunma, daxili özünüidarəetmə, təsərrüfatın inkişafı üçün mərkəzi hökumətdən dəstək və s. kimi azadlıqlar və imtiyazlar verildi. Qraf Orlovun rəhbərliyi altında köçkünlərin yerləşdirilməsi ilə bağlı Qəyyumluq İdarəsi də yaradıldı. Keçirilən bu siyasətin nəticəsində XIX əsrin əvvəllərindən etibarən Volqa, Qara dəniz bölgəsində çoxlu sayda vətənini tərk etməyə məcbur qalmış alman məskunlaşdı. Beləliklə, almanların Cənubi Qafqaza köçürülməsi ideyası Rusiya imperiyası üçün yeni deyildi və bu zamana kimi geniş istifadə olunan bir anlayış idi. Bundan başqa çar hakimiyyətinin bir çox nümayəndələri də bu fikri dəstəkləyirdilər. Qafqaz ordusunun baş komandanı general-leytenant Yermolov Zaqafqaziya ərazisində kənd təsərrüfatının və müxtəlif sənaye sahələrində irəliləyişlərin əldə olunması üçün alman əhalinin buraya köçürülməsini, koloniyaların yaradılması fikrini irəli sürmüşdür. Bu fikrə səbəb işğal olunmuş bölgəyə almanların köçürülməsi imperiyanın maraqlarını və siyasətini həyata keçirməyə imkan verirdi.

XIX əsrin sonlarına qədər Azərbaycanda bir çox alman kolonistlərinin həyatı kifayət qədər qapalı və spesifik idi. Xeyli sayda pietist Şvabiyadan Xəzər dənizi sahilinə miqrasiya etmişdi. Onlara torpaq sahələri, həmçinin dini etiqad azadlığı, hərbi xidmətdən və vergilərdən azad olunmalarına zəmanət verildi. Lakin köçənlər arasında təkcə dini təqiblərə görə Avropa hakimiyyətlərindən gizlənənlər deyil, aclıqdan qaçanlar da var idi. Tədricən almanlar isti iqlimə uyğunlaşır, sistemli şəkildə əkinçiliyə yiyələnir, üzümçülüklə məşğul olurlar. Dövlət onlara maliyyə dəstəyi verirdi. Şərab istehsalı yaxşı gəlir gətirirdi. Varlı şərabçılar arasında Forer, Hummel, Qurr və Bek ailələri öz vəsaitlərindən məharətlə istifadə edərək fərqlənirdilər (Abdullayev, 2000, s. 35).

Almanların köçürülməsi Rusiya hökuməti tərəfindən dotasiya edilmişdi və o dövrdə böyük məbləğdə 697.500 gümüş rubl xərclənmişdi (Hümbətova, 2008). Bu, qarşılıqlı faydalı layihə idi. Almanlar "vəd edilmiş torpaqları", Rusiya isə yeni əkinçilik üsullarını və bölgənin xristianlaşdırılması məsələsini həyata keçirirdi. Amma bu da müəyyən problemlər yaratdı. Almanları yaşayış olmayan ərazilərə yerləşdirmək hökumət üçün sərfəli idi, lakin onlar bu yeri özləri seçmək istəyirdilər. Yerli hakimiyyət orqanlarının bəxti onda gətirdi ki, köçkünlər ümidsiz vəziyyətdə idilər. Çünki onlara pul borc olaraq verilirdi. Buna görə də almanlara qışı şəhərdə gözləməyə icazə verildi, daha sonra müşayiət altında olan 118 ailədən ibarət ilk qrup Gəncədən 10 km aralıda Gəncəçayın sağ sahilində yerləşdirildilər. İlk alman qəsəbəsi olan Helenendorf, indiki Göygölün tanınmış rayon mərkəzi belə yarandı. O, həm də Zaqafqaziyada bütün almanların əsas şəhərinə çevrilmişdir. Bir qədər sonra hökumətlə almanlar razılığa gəlir və bir vaxtlar insanların yaşadığı yerlərdə məskunlaşma baş verir. Belə ki, almanların ikinci qəsəbəsi hesab olunan 67 ailədən ibarət olan Annnenfeld qəsəbəsi yaranır. 1818-ci ilin sonunda Azərbaycana, Yelizavetpola, indiki Gəncə bölgəsinə təxminən 500 nəfər köçkün dəstəsi gəldi. 1819-cu ildə daha iki koloniya Yekaterinenfeld və Aleksandergilf koloniyaları meydana çıxdı. Bu ərazilərdə 116 ailə yaşayırdı. Bura indi əsasən azərbaycanlıların yaşadığı Gürcüstan ərazisidir. Şvabiyadan gələn yığcam alman icmalarının sonrakı gəlişi yaşayış məntəqələrinin sayını səkkizə çatdırdı: Helenendorf (Göygöl), Annenfeld (Şəmkir), Alekseyevka, Yelizavetinka (Ağstafa), Georqsfeld (Çinarlı), Qrünfeld, Traubenfeld (Tovuz) və Eygenfeld (İrmaşlı) kəndləri indiki Ağstafa, Tovuz, Qazax rayonları ərazisində yerləşirdi. Georqsfeld və Traubenfeld koloniyaları sonradan Helenendorfdan ayrılaraq yaranmışdı (Alman ədəbiyyatı antologiyası: İki cilddə, 2006).

1819-cu ildə Şvabiyadan olan köçkünlər tərəfindən əsası qoyulmuş keçmiş Helenendorf yaşayış məntəqəsi bu gün az da olsa qalmışdır. Bu koloniya Rusiya imperatoru I Pavelin qızı, böyük

hersoginya Yelena Pavlovnanın şərəfinə adlandırılmış və Azərbaycandakı bütün alman koloniyalarının mərkəzi olmuşdur. 1938-ci ildə Helenendorfun adı dəyişdirilərək Xanlar, 2008-ci ildə isə Göygöl adlandırılmışdır. Bu kiçik şəhərdə hələ də beş alman küçəsi, alman köçkünlərinin evləri və kilsə var. Keçmiş bələdiyyə binası və bir vaxtlar almanlar tərəfindən tikilmiş kiçik park bu günə qədər gəlib çatmışdır. 1886-cı ildə Helenendorfda ciddi tibb şöbəsinə malik, birbaşa əczaçı nəzarəti altında süni mineral sular istehsal edən zavod açılmışdı. 3-4 min nəfər əhalisi olan kiçik Helenendorfda bir neçə fabrik tikilmişdi. Orada emalatxanalar və istehsal müəssisələri də var idi. Mövsümi olaraq müxtəlif bölgələrdən və hətta İrandan işçi axını olurdu. Bu ərazidə Bakı-Tiflis dəmir yolu da açılmışdı. Stansiyada böyük zavod, yaxınlıqda isə mülk tikilmişdi. Almanlar 2 min hektar ərazidə üzüm bağı salıb, iki şərab zavodu tikdirmişdilər. Bunun üçün İtaliyadan mütəxəssis və Gürcüstandan işçilər dəvət olunmuşdu. Alman məhsulları müxtəlif sərgilərdə, o cümlədən beynəlxalq sərgilərdə hər cür mükafatlarla təltif edilmişdir (Azərbaycan toponimləri: Ensiklopedik lüğət, 2000).

Qeyd edildiyi kimi, hökumət boş yerə subsidiya vermirdi. Subsidiyalar köçürüləndən sonra da davam edirdi. Almanlara ev tikmək, mal-qara almaq və kənd təsərrüfatını inkişaf etdirmək üçün kreditlər verilirdi. Hər ailəyə 35 desyatin torpaq sahəsi ayrıldı. 1823-cü ilə qədər ayrılan vəsaitin miqdarı 1.066.000 gümüş rubl olaraq qiymətləndirildi (Kerimov, 2018). Bütün bunlar üzümçülüyü və şərabçılığı inkişaf etdirmək, onu prinsipial olaraq yeni, Avropa səviyyəsinə çatdırmaq üçün edilirdi. Onlar məskunlaşdıqları ilk vaxtlardan Şimali Azərbaycanda ilk üzüm bağları salmağa başlamışdılar. Artıq 1860-cı ildə sənaye əsaslarında sabit şərab istehsalına başlanılmışdır.

1892-ci ildə Elendorf şirkəti “Fohrer Brothers” Azərbaycanda ilk konyak zavodunu açır. 1895-ci ildə Qummel qardaşları daha birini tikir. Hər iki zavod ən son texnologiyadan istifadə edilməklə tikilir. Onlar təkcə Rusiyada deyil, həm də Avropada satılan bütün növ şərablar istehsal edirdilər. 1882-1901-ci illərdə Helenendorfdan olan alman şərabları müxtəlif beynəlxalq müsabiqələrdə 20 dəfədən çox mükafata layiq görülüb, 10 qızıl medal əldə etmişdir (Ağasıyev, 2024).

1841-ci ildə hökumət ipəkçiliyi inkişaf etdirmək üçün almanlardan istifadə etmək qərarına gəldi. Bu məqsədlə beş köçkün oğlan o vaxt Nuxa adlandırılan indiki Şəkiyə oxumağa göndərilir. Daha sonra 14 min tut ağacı əkilir və artıq 1845-ci ilə qədər alman icmasında 40 ipəkçiliklə məşğul olan təsərrüfat yaradılmışdı (Verdiyeva, 2010).

Azərbaycan ərazisində XIX əsrin əvvəllərində məskunlaşmış alman kolonistləri bu ölkənin inkişafına böyük və mühüm töhfələr vermişlər. Fabriklər, zavodlar, məktəblər, apteklər, tibb məntəqələri, teatrlar, otellər, kitabxanalar, kilsələr tikdirmiş, eyni zamanda telefon xətti çəkmişlər. Alman şirkəti Siemens, Halske su elektrik stansiyası inşa etmiş, dəmir yolları və neft kəməri çəkmişlər. XIX əsrin sonlarında bu şirkətin elektrik avadanlıqları, dəmir yolu nəqliyyatı və məişət texnikası istehsalı ilə məşğul olan müəssisələrinin payı 75%-ə yüksəlib. 1905-1907-ci illərdə müəssisədə 6-8 min nəfər işləyirdi (MDZ Moskau)

1870-ci illərdə Bakı çoxlu istehsal və maliyyə şirkətləri, firmalar, ticarət və sənaye idarələri və digər müəssisələri ilə Rusiyanın ən böyük neft hasilatı mərkəzinə çevrildi. Bakı quberniyasına çoxlu sayda xarici mütəxəssislər köçürüldü, onların arasında alman mühəndislər, memarlar, müəllimlər, həkimlər, sahibkarlar və s. çox idi. Bakının ilk baş planını 1898-1902-ci illərdə şəhərin meri olmuş Nikolay fon der Nonne tərtib etmişdir. Onun memarlıq layihələri əsasında bir neçə bina tikilmişdir. Bakıda ilk aptek Karl-Eduard Eyxler tərəfindən açılıb. İlk parkın salınması isə 1852-1859-cu illərdə Bakı qalasının hərbi komendantı Reinhold fon der Hovenin adı ilə bağlıdır. Yeri gəlmişkən, bu bir həqiqətdir ki, Azərbaycanda almanlar tərəfindən tikilmiş bəzi binalar bu günə qədər gəlib çatmışdır.

1921-1935-ci illərdə alman müstəmləkə kooperativi “Konkordiya” Azərbaycanda bir çox fabrik, anbar və emalatxanalara sahib idi. Kooperativin nümayəndəlikləri və 183 mağazası bütün SSRİ-də, ofislərindən biri hətta Almaniyada yerləşirdi.”Konkordiya” təhsil, elmi iş, xaricdə təhsil, mədəni tədbirlər və müstəmləkəçilərin digər fəaliyyətləri üçün pul ödəyirdi (MDZ Moskau).

Azərbaycan almanlarının öz məktəbləri, kilsələri və normal yaşayışı üçün bütün lazımi infrastrukturu var idi. XX əsrdə kiçik şəhərlərə çevrilmiş onların yaşayış məntəqələrində həyat Azərbaycanda orta səviyyədən xeyli yaxşı idi. Bu, həm onların zəhməti, həm də hökumətdən aldıqları maddi dəstək ilə bağlı idi. 1846-cı il siyahıya alınmasına görə 609 nəfər olan Helenendorfun (Göygöl) əhalisi 1926-cı ilə qədər 6 dəfə artaraq iki əlavə koloniya yaratmışdı.

Təəssüf ki, Rusiya və Almaniyanın düşmən olduğu Birinci Dünya Müharibəsinin yaxınlaşması ilə almanların vəziyyəti pisləşməyə başladı. Əvvəlcə onlara torpaq almaq qadağan edildi, sonra isə Rusiya vətəndaşlığı olmayan hər kəsi həbs etməyə başladılar. Alman qəzetlərinin nəşri məhdudlaşdırıldı, tarixi vətənlə bütün əlaqələr qadağan edildi, yaşayış məntəqələrinin adları rus üslubunda dəyişdirilməyə başladı. Beləliklə, 1915-ci ildə Helenendorf Elenino, Annenfeld Annino oldu. Rusiya və Ukrayna almanları, rus ordusunun məğlubiyyətləri fonunda, talanlara, torpaqların ələ keçirilməsinə və kütləvi deportasiyalara dözməli oldular. Müharibə zamanı təkcə qərb əyalətlərindən 500 mindən çox alman deportasiya edilmişdi (Baku Media).

Azərbaycanda isə şvablar ciddi nəzarət altında olsalar da, almanlar məktəblərinə, kilsələrinə gedir, dinc fəaliyyətlərini davam etdirirdilər. 1917-ci ilin fevral inqilabı ilə almanlara qarşı bütün məhdudiyyətlər aradan qaldırıldı və ADR-in qəbul etdiyi "Müstəqillik aktı" onların qarşısında yeni perspektivlər açdı. Gənc respublikanın parlamentinə ilk dəfə olaraq almanların nümayəndəsi L.Ya. Kun daxil olur. 1919-cu il iyunun 9-da dövlətin dəstəyi ilə hətta almanların köçürülməsinin 100 illiyi də qeyd olunur.

Bolşeviklərin hakimiyyətə gəlməsi ilə inkişaf vektoru bir qədər dəyişdi. Alman müstəmləkələri kollektivləşməyə məruz qalır ki, bu da varlı alman kəndliləri üçün məhvə bərabər idi. 1930-cu illərdə repressiyalar başladı, çoxlu azərbaycanlı alman həbs olundu və Ağ dəniz kanalının tikintisinə göndərildi. Onların arasında ölkəyə müasir şərabçılıq üsullarını gətirən Forer və Hummel də var idi. Alman icmasının köçürülməsi nəhayət Sibir və Qazaxıstana məcburi köçürmə haqqında fərmanla sona çatdı (AZƏRTAC).

Azərbaycanda praktiki olaraq alman qalmayıb. Lakin onların burada yaratdıqları memarlıq tikililəri, kənd təsərrüfatı, üzümçülük və şərabçılıqda tətbiq etdikləri metodlar bu sahələrin ölkəmizdə sonrakı dövrlərdə də inkişafına rəvac vermişdir. Azərbaycanda alman irsi dövlət səviyyəsində mühafizə olunur. 2016-cı ildə Azərbaycandakı alman koloniyalarının salınmasının 200 illiyinin keçirilməsi haqqında dövlət başçısı cənab İlham Əliyev sərəncam imzalamışdır (Kerimov, 2018). Bu hadisə YUNESKO-nun "2016-2017-ci illərdə məşhur şəxsiyyətlər və əhəmiyyətli hadisələr haqqındakı yubiley proqramı"na daxil edilmişdir.

## Nəticə

Azərbaycan yerləşdiyi coğrafi mövqeyinə görə tarix boyu müxtəlif xalqların, dövlətlərin diqqət mərkəzində olmuşdur. Çoxmillətli, çoxdilli, çoxdinli Azərbaycan üçün bu zəmini tarix özü yaratmışdır. Ölkəmizdə olan mədəni irsin bir nümunəsi də almanlara məxsusdur. Avropanın köklü xalqı hesab olunan almanların bir hissəsi XIX əsrdə Napoleon istilalarından yaxa qurtarmaq üçün ölkəmizə üz tutmuşlar. Onların bu torpaqlara gəlməsindən 200 ildən artıq bir vaxt keçir. Bu müddət ərzində almanlar Azərbaycanda 8 koloniya salmış, özlərinə xas olan adət-ənənələrini burada qoruyub saxlamaq üçün səy göstərmişlər. Bir çox sahələrdə tətbiq etdikləri yeniliklər ölkənin inkişafına töhfə olmuşdur. Almanların burada məskunlaşdıqları zaman ilkin dövrlərdə qarşılaşdıqları çətinliklər yerli əhalinin yardımı ilə daha tez aşılmışdır. Çünki xalqımız multikultural dəyərlərə sahibdir. Bunun bariz nümunəsi ölkəmizdə yaşayan müxtəlif etnik qruplara, xalqlara tolerant yanaşmadır.

Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasındakı beynəlxalq əlaqələr hazırda yüksək səviyyədə inkişaf edir. Alman mədəni irsinin dövlət miqyasında mühafizə olunması bu münasibətlərə müsbət zəmin yaradır. 2016-ci ilin avqustunda Azərbaycandakı alman koloniyalarının yaradılmasının 200 illik yubileyinin qeyd olunması üçün prezident cənab İlham

Əliyev sərəncam imzalamışdır. Bu bir daha sübut edir ki, ölkə baççısının qeyd etdiyi kimi, Azərbaycan üçün multikulturalizm xalqımızın həyat tərzidir.

## Ədəbiyyat

1. Abdullayev, Ç. (2000). *Almaniya-Azərbaycan əlaqələri*. Bakı: Azərbaycan Milli Ensiklopediyası.
2. Abdullayev, Ç. (2014). *Azərbaycan-Almaniya əlaqələri*. Bakı: Mütərcim.
3. Ağasıyev, İ. (2024). *Qafqazın alman məskənləri*. Bakı: Nəşriyyat.
4. Alman ədəbiyyatı antologiyası: İki cilddə. (2006). Bakı: Şərq-Qərb, s. 373, s. 438.
5. Almanlara Azərbaycanda. (1992). Bakı.
6. Azərbaycan toponimləri*: Ensiklopedik lüğət.* (2000). Bakı.
7. AZƏRTAC. (n.d.). https://azertag.az/xeber
8. Baku Media. (n.d.). Publications.
   https://ru.mdz-moskau.eu/po-sledam-nemcev-v-azerbajdzhane/
   https://www.baku-media.ru/publications
9. Hümbətova, T. (2008). *Almanlar Azərbaycanda*. Bakı.
10. Kerimov, E. (2018). *Etnografiya nemtsev Azerbaydzhana*. Baku.
11. MDZ Moskau. (n.d.). Po sledam nemtsev v Azerbaydzhane.
12. Verdiyeva, H. (2010). *Almanlar Şimali Azərbaycanda*. Bakı.
13. Zeynalova, S. (2002). *Nemetskiye kolonii v Azerbaydzhane (1819–1941 gg.)*. Baku.

Daxil oldu: 05.12.2024
Qəbul edildi: 10.03.2025